## “Reklamı qadağan olunan əmtəələrin Siyahısı”nın təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin *və “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 479-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 fevral tarixli 1245 nömrəli Fərmanının 2-ci hissəsinin* icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**[1]

“Reklamı qadağan olunan əmtəələrin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 17 oktyabr 2016-cı il
№ 414

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2016-cı il 17 oktyabr tarixli 414 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

### Reklamı qadağan olunan əmtəələrin

### SİYAHISI

| Sıra №-si | Əmtəələrin adı |
|---|---|
| 1. | Sertifikatlaşdırılmalı olan, lakin sertifikatlaşdırılmamış əmtəələr |
| 2. | İstehsalına (satışına) lisenziya tələb olunan, lakin barəsində belə lisenziya verilməyən əmtəələr |
| 3. | Həkim resepti əsasında buraxılan dərman vasitələri |
| 4. | Dopinq vasitələri |
| 5. | İstifadəsinə (tətbiqinə) Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən icazə verilməmiş tibbi təyinatlı texnika, müalicə, profilaktika, diaqnostika və reabilitasiya metodları, o cümlədən hipnoz seansları, kontaktsız, psixi və ya bioenergetik təsirə əsaslanan müalicə metodları |
| 6. | Hamiləliyin süni yolla pozulması üzrə tibbi xidmətlər |
| 7. | Süni mayalanma üzrə tibbi xidmətlər |
| 8. | Tütün, tütün məmulatları və onların ləvazimatları, o cümlədən tənbəki çubuqları, qəlyanlar, elektron siqaretlər, siqaret kağızları, alışqanlar |
| 9. | Satışa çıxarılması barədə qərar qəbul edilməmiş qiymətli kağızlar |

| | |
|---|---|
| 10. | Keçirilməsi qadağan edilmiş stimullaşdırıcı lotereyalar və qeydiyyata alınmamış digər lotereyalar |
| 11. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən tanınmamış və idman növlərinin dövlət reyestrinə daxil edilməmiş idman növləri |
| 12. | Qumar oyunları |
| 13. | Pornoqrafiya |
| 14. | "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş əmtəələr |
| 15. | "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş əmtəələr |
| *16.* | *Ətraf mühit üçün təhlükə potensialı olan əmtəələr:*[2] |
| *16.1.* | *İstifadə olunmuş qurğuşun-turşu akkumulyatorlar* |
| *16.2.* | *İşlənilmiş batareyalar* |
| *16.3.* | *İstifadə olunmuş şinlər* |
| *16.4.* | *İşlənilmiş sürtkü və mühərrik yağları* |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 avqust 2018-ci il tarixli **365** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 sentyabr 2018-ci il, № 194, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1815)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 30 avqust 2018-ci il tarixli **365** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 sentyabr 2018-ci il, № 194, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1815)** ilə preambulada "**yarımbəndinin**" sözündən sonra "**və "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 479-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 fevral tarixli 1245 nömrəli Fərmanının 2-ci hissəsinin**" sözləri əlavə edilmişdir.

[2] 30 avqust 2018-ci il tarixli **365** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 sentyabr 2018-ci il, № 194, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1815)** ilə "Reklamı qadağan olunan əmtəələrin Siyahısı"na yeni məzmunda 16-cı hissə əlavə edilmişdir.